NAXÇIVANIN QƏDİM MƏDƏNİYYƏTLƏRİ

Naxçıvanın arxeoloji abidələrinin tədqiqi bu regionda insanların Orta Paleolit dövründən məskunlaşdığı, qədim mədəniyyətlərin yerli xammal bazasına və yerli ənənələrə əsaslanaraq qədim Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqədə inkişaf etdiyini göstərir. İstər Eneolit abidələrinin, istərsə də qədim sənət əsərlərinin tədqiqi e.ə. VI-IV minilliklərdə əhalinin müəyyən qrupunun Şimali Mesopotamiyadan Urmiya hövzəsinə və Naxçıvana miqrasiya etdiyini göstərir (4, s.17). V.M.Masson Urmiya hövzəsində yerləşən Eneolit abidələrindəki boyalı keramikanı Şimali Ubeydin lokal variantı hesab etməklə, Urmiya hövzəsinin qədim əkinçilərinin Şimali Mesopotamiyadan gəldiyini qeyd etmişdir (14, s. 21). Hazırda aparılan araşdırmalar bu fikirlərin tamamilə doğru olduğunu sübut edir. Mil düzündən aşkar olunan Eneolit dövrünə aid boyalı keramikanın I Kültəpə və Yanıqtəpə materialları ilə bənzər olması, habelə İ.H.Nərimanovun (15, s. 271-272) apardığı araşdırmalar zamanı Azərbaycanda Eneolit dövrünə aid xeyli maddi mədəniyyət nümunələrinin aşkar olunması Ubeyd tayfalarının Azərbaycanda müxtəlif istiqamətlərdə yayıldığını göstərir (4, s. 17). I Kültəpənin Eneolit təbəqəsindən aşkar olunan boyalı keramika və arxası üstə uzadılmış skeletlər bu mədəniyyətin Cənubi Mesopotamiya və şumer tayfaları ilə bağlı olduğunu təsdiq edir. Çünki arxası üstə uzadılmış skeletlərin Mesopotamiyada geniş yayılması şumerlərin gəlişi ilə əlaqələndirilir (11, s. 190). I Kültəpədə Cənubi Mesopotamiya tayfaları ilə bağlı mədəni təbəqənin qalınlığı, istər skelet qalıqlarının, istərsə də Xalaf-Ubeyd boyalı keramikasına 20,8 - 16,6 m dərinlikdə rast gəlinməsi şumerlərin Azərbaycanda, o cümlədən Naxçıvanda uzun müddət məskunlaşdığını göstərir (4, s.16-17).

Qədim şumer dilinin türk dilləri ilə bağlı olması haqqında Azərbaycan və Qərbi Avropa alimlərinin fikirlərinə elmi ədəbiyyatda geniş yer verilmişdir (4, s. 26). Qədim yazılı mənbələrdə daha çox Azərbaycanın cənubunda, xüsusilə Urmiya hövzəsində yaşayan tayfalar haqqında məlumat verilmişdir. Lakin Naxçıvanın e. ə. VI-I minilliklərə aid mədəniyyətinin araşdırılması bu dövrdə Naxçıvanın Cənubi Azərbaycanla vahid etnik-mədəni rayona daxil olduğunu göstərir.

Naxçıvan abidələrində Eneolit mədəniyyətini əvəz edən Kür-Araz mədəniyyətinin mənşəyi ilə bağlı müxtəlif fikirlər irəli sürülsə də, bu mədəniyyətin Cənubi Qafqazdan yayılması haqqında araşdırıcılar ümumi fikirdədirlər (4, s. 24). Lakin qeyd etmək istərdik ki, İlk Tunc dövrü abidələri ilk dəfə Kür-Araz ovalığında aşkar olunduğundan elmi ədəbiyyatda bu cür adlandırılmışdır. Bir çox araşdırıcılar buna əsaslanaraq Kür-Araz mədəniyyətinin yaranma ocaqlarının Cənubi Qafqazın şimal rayonları ilə bağlı olduğunu qeyd etmişlər. Aparılan araşdırmalar göstərir ki, Azərbaycanın cənub rayonlarında, xüsusilə Naxçıvan və Urmiya hövzəsində yerləşən yaşayış yerləri mədəni təbəqənin möhtəşəmliyi ilə fərqlənir. Bu vəziyyət Anadolunun şərqində yerləşən Kür-Araz mədəniyyəti abidələrində də müşahidə edilir. Azərbaycan, o cümlədən Naxçıvan ərazisində yerləşən Kür-Araz mədəniyyəti abidələrinin tədqiqi göstərir ki, bu mədəniyyət Eneolit mədəniyyəti əsasında inkişaf etmişdir. Kür-Araz mədəniyyətinin Eneolit mədəniyyəti ilə bağlılığı Urmiya hövzəsi və Naxçıvan bölgəsinin abidələrində xüsusilə aydın şəkildə izlənilir. Göytəpə, I Kültəpə, II Kültəpə və Ovçulartəpəsindən aşkar edilmiş keramika məmulatında Eneolit mədəniyyətinin təsiri olduqca açıq əks olunmuşdur. Ümumiyyətlə, Urmiya hövzəsi və Naxçıvanda yerləşən İlk Tunc dövrü abidələrində mədəni təbəqənin qalınlığı, Kür-Araz mədəniyyətinin bütün mərhələlərinin aydın izlənilməsi, yaşayış yerlərində Kür-Araz təbəqəsinin Eneolit təbəqəsini örtməsi sübut edir ki, bu ərazi Kür-Araz mədəniyyətinin əsas istehsal ocaqlarından biri olmuşdur (7, s. 25-28).

Kür-Araz mədəniyyətinin hind-avropalılara aid olması haqqında müəyyən fərziyyələr irəli sürülsə də, bu fikirlər özünü doğrultmamışdır. Urmiya hövzəsindən Dağıstan və Şimali Qafqaza, Xəzər dənizi sahillərindən Aralıq dənizi hövzəsinədək geniş bir ərazidə yayılan Kür-Araz mədəniyyətində lokal variantların mövcudluğu tədqiqatçılar tərəfindən qeyd edilmişdir (16, s. 137-138, 174-175). Odur ki, Kür-Araz mədəniyyətinin müəyyən vahid bir etnosla bağlanılması haqqındakı fikirləri doğru hesab etmək olmaz. Araşdırmalar göstərir ki, Kür-Araz keramikası onun yayıldığı geniş arealda yalnız ümumi əlamətlərinə görə müqayisə edilə bilər (4, s. 26). Kür-Araz mədəniyyətinin lokal variantları yalnız keramika məmulatında deyil, həmçinin ocaq qurğuları, metal əşyalar və digər maddi mədəniyyət nümunələrində özünü göstərmişdir. Odur ki, Kür-Araz mədəniyyətinin lokal variantlarını müəyyən tayfalarla bağlamaq olar. Bu baxımdan Urmiya hövzəsi və Naxçıvanda yayılan Kür-Araz mədəniyyətini e.ə. III minilliyin ikinci yarısında yazılı mənbələrdə xatırlanan kuti və lullubilərə aid etmək mümkündür (4, s. 26). Tədqiqatçılar e. ə III-I minillikdə Cənubi Azərbaycanda məskən salan tayfaların etnik, mədəni və dil baxımından zaqro-elam tayfaları ilə yaxınlığını qeyd etmişdir. Şübhəsiz ki, kuti və lullubilərin dili Ural-Altay dilləri ilə bağlanan elam və şumer dilinə bənzər olmuşdur. Son zamanlar kuti və lullubilərin prototürklərlə bağlı olması haqqında inkaredilməz dəlillər irəli sürülmüşdür (5, s. 5-13). Kür-Araz mədəniyyətinə aid qədim sənət əsərlərinin, xüsusilə keramika məmulatı üzərindəki naxışların, sitayiş qurğularının tədqiqi kuti və lullubi tayfalarının dünyabaxışını öyrənməyə imkan verməklə bərabər, yuxarıda qeyd edilən fikirləri daha da möhkəmləndirir. Kür-Araz keramikasında Göy cisimlərinə sitayiş və məhsuldarlıqla bağlı təsvirlər türk xalqlarının etnoqrafiyasında və folklorunda indiyədək qalmışdır. Göy cisimlərinə sitayiş və məhsuldarlıq tanrısı ilə bağlı inanclar qədim dini baxışların qalıqları kimi indi də azərbaycanlılar arasında yaşamaqdadır.

Kür-Araz mədəniyyətini əvəz edən Orta Tunc dövrü mədəniyyətinin mənsub olduğu qədim tayfalar haqqında olduqca az fikirlər söylənilməsinə baxmayaraq e. ə. III minilliyin ikinci yarısında Yaxın Şərq və Qafqazda boyalı keramikanın yayılması yeni tayfaların gəlişi ilə bağlanmışdır (9, s.87). B.A.Kuftin (17, s.10) və Ç.Barneyin (10, s. 176-178) fikrinə görə, Orta Tunc dövrünün boyalı keramikası Cənubi Qafqaza Mesopotamiyadan yayılmışdır. Orta Tunc dövrü boyalı qablarının naxışlanma motivinə görə Eneolit boyalı qablarına bənzəməsinə baxmayaraq, Eneolit mədəniyyəti ilə Orta Tunc dövrü mədəniyyəti arasında Kür-Araz mədəniyyəti ilə kəsilən böyük bir fasilə mövcuddur. Digər tərəfdən Mesopotamiyada Cənubi Qafqazın Orta Tunc dövrü mədəniyyətinə bənzər mədəniyyətə rast gəlinməmişdir. Belə hesab edirik ki, Eneolit dövründən Azərbaycanda məskən salmış bəzi tayfalar İlk Tunc dövründə burada qapalı həyat tərzi sürmüş və e. ə. III minilliyin sonlarında güclənərək tarix səhnəsinə çıxmışlar. Araşdırmalar göstərir ki, Orta Tunc dövrü boyalı keramikasının yaranma ocağı Azərbaycan ərazisi olmuşdur. Urmiya hövzəsi və Naxçıvanda geniş yayılmış, sarı fon üzərinə polixrom boya ilə çəkilən naxışları tədqiqatçılar Azərbaycan üçün xarakterik hesab etmişlər (9, s. 75-87). Bu tip keramikaya qonşu Cənubi Qafqaz ölkələrində rast gəlinməsi bu mədəniyyətin Azərbaycanla bağlı olduğunu və onun əsas mərkəzlərindən birinin Naxçıvan olduğunu göstərir.

Yuxarıda qeyd etdiyimiz kimi araşdırmalar göstərir ki, boyalı keramika ilə xarakterizə edilən Orta Tunc dövrü mədəniyyəti Cənubi Qafqazın yalnız cənub rayonlarında yayılmışdır. Cənubi Qafqazın digər regionlarında, o cümlədən Azərbaycanın şimalında qara cilalı keramika ilə xarakterizə edilən mədəniyyət yayılmışdır. Bu mədəniyyət üçün həmçinin basma naxışlı qara cilalı qablar da xarakterik olmuşdur. Mənşəcə Kür-Araz mədəniyyəti ilə bağlı olan bu tayfalar Cənubi Qafqazın şimal rayonlarında kompakt şəkildə yaşamağa davam etmişlər. İ.M.Dyakonovun fikrinə görə, kutilər Cənubi Qafqaza yenicə qüvvətlənən lullubi tayfa ittifaqı tərəfindən sıxışdırılmışdır (12, s. 5-8). Boyalı keramika ilə xarakterizə olunan Orta Tunc dövrü mədəniyyətinin lullubilərlə bağlı olduğunu digər faktlar da sübut edir. II Kültəpə (1, s. 110) və Nəhəcirdən (18, s. 57) aşkar edilmiş polixrom və monoxrom boyalı qabların üzərindəki səkkiz guşəli ulduz təsvirinə lullubi hökmdarı Anubaninin qələbə abidəsi üzərində də rast gəlinir. Bu boyalı qablar mədəniyyətini yaradan tayfalar ilə lullubilər arasında genetik bir bağlılıq olduğunu göstərir.

Qızılburundan aşkar edilmiş boyalı küpə üzərində rəqs edən iki sxematik insan təsviri verilmişdir. Qızılburun küpəsi üzərindəki təsvirlərin birinin kişi, digərinin isə qadını simvolizə etdiyi V.H.Əliyev tərəfindən qeyd edilmişdir (13, s. 57-58). Kişi fiquru qara, qadın fiquru isə qırmızı rənglə, yelpazəli geyimdə təsvir edilmişdir. Bu təsvirin məhsuldarlıqla bağlı ritual rəqs səhnəsini əks etdirdiyini yuxarıda qeyd etmişdik. Qadın fiqurunun yelpazəli geyimi Anubaninin qələbə abidəsində təsvir edilən ilahənin geyimi ilə bənzərdir. Bu lullubi tayfaları ilə boyalı qablar mədəniyyətini yaradan tayfalar arasında inanc birliyinin olduğunu göstərir.

Naxçıvanın toponimləri yazılı mənbələrdə xatırlanmayan digər bir tayfanın da adını qoruyub saxlamışdır. Bu tayfalar "naxçı" tayfaları olmuşdur (18, s. 121). Onlarla bağlı Naxçıvan, Nəhəcir, Naxışnərgiz və digər yer adları indiyədək qalmışdır (2, s. 29). Araşdırmalara əsaslanaraq tədqiqatçılar Naxçıvan toponiminin "naxçı" tayfa adı ilə bağlı olduğunu qeyd etmişlər (19, s. 13-19; 4, 44; 2, s. 27-30). Ehtimal ki, naxçı tayfaları Azərbaycanda Araz vadisi boyunca məskən saldıqları və qədim sivilizasiya mərkəzlərindən bir qədər uzaqda yerləşdikləri üçün yazılı qaynaqlarda xatırlanmamışdır.

Qızılburun boyalı küpəsi üzərində olan ritual rəqslə bağlı təsvir Azərbaycan türklərinin qədim inancları ilə yaxından səsləşir və etnoqrafik baxımdan indiyədək Naxçıvan ərazisində qorunub saxlanmışdır. Bizim apardığımız müşahidələr Naxçıvanda yad qadınla rəqs etməyə yasaq qoyulduğunu müəyyən etmişdir. Bu, rəqsetmənin qohum olmaq, evlənmək anlamına gəlməsi ilə bağlıdır. Naxçıvanda qorunub saxlanmış başqa bir adətə görə, qızın nişanlı olduğunu daha geniş şəkildə bildirmək üçün o, nişanlandıqdan sonra keçirilən toylarda oynadılır. Qədim sənət əsərlərinin, folklor nümunələrinin və etnoqrafik materialların müqayisəli araşdırılması, müqəddəs evlənmə ilə bağlı inancların Azərbaycanda uzun müddət davam etdiyini göstərir. Keçmiş inancların qalıqları bu gün də yaşamaqda davam edir. Bəlli olduğu kimi Avropa xalqlarında, eyni zamanda Azərbaycanın bəzi regionlarında qadınla kişinin oynamasına bəlli bir qadağa qoyulmamışdır. Faktlar göstərir ki, bu yasaqlar Şərq xalqları üçün xarakterik olmuşdur. Orta Tunc dövrünün boyalı qabları üzərində olan digər təsvirlər də (maral, su quşları, keçi, canavar, fantastik varlıqlar və s.) Azərbaycan türklərinin əski inancları ilə yaxından səsləşir.

Qədim sənət nümunələrində olan təsvirlərin folklor nümunələri və etnoqrafik materiallarla müqayisəli şəkildə öyrənilməsi uğurlu nəticələr vermişdir. Bu üsulun tətbiqi həmçinin Gəmiqaya təsvirlərinin də semantikasını açmağa imkan vermişdir. Araşdırmalar əsasında Naxçıvan ərazisində məskən salan qədim tayfaların mifoloji dünyagörüşü öyrənilmiş və onun Azərbaycan türklərinin qədim inancları ilə yaxından bağlı olduğu ortaya çıxarılmışdır.

Gəmiqaya təsvirlərində rast gəlinən astral rəsmlər, heyvan rəsmləri, ov və ritual rəqs səhnələri bənzərləri Azərbaycanın xalq sənəti nümunələrində indi də yaşamaqda davam edir. Qaya təsvirlərində müəyyən mərasimlərin keçirilməsi ilə bağlı olan təsvirlər xüsusilə diqqətə layiqdir. İnsanların həyatının təmin edilməsi, bu məqsədlə müəyyən ovsunların tətbiqi, gərəksiz ova yasaq qoyulması, xeyirin şər üzərində qələbəsinə inam, həyatın kosmik başlanğıc tərəfindən idarə edilməsi ilə bağlı inanclar Azərbaycanda məskən salan qədim tayfaların mənəvi mədəniyyətinin, onların əski dünyabaxışlarının ayrılmaz tərkib hissəsi olmuşdur. Araşdırmalar Gəmiqaya abidəsinin qədim insanların inanc yeri olduğunu göstərir. Ordubad rayonunun Tivi kənd sakinlərinin verdiyi məlumata görə, yerli əhali son zamanlaradək Gəmiqaya ziyarətgahlarına gedərək müəyyən mərasimlər keçirmişlər. Bu mərasimlərdən biri "Su səpən" bayramının keçirilməsi olmuşdur. Bu mərasimin keçirilməsi indi də Anadolunun türk xalqları içərisində yaşamaqdadır. Şərqi Anadoluda apardığımız elmi araşdırmalar zamanı türk xalqlarının əski inancları ilə bağlı olduqca maraqlı faktlarla rastlaşdıq. Bunlardan biri indi də xalq arasında dolaşmaqda olan "Van canavarı" əfsanəsidir. Bu əfsanənin tarixi kökləri qurd totemi ilə bağlıdır. Qurdun xilaskar olması haqqında Azərbaycan folklor nümunələrində xeyli məlumat vardır. Qurdla bağlı inanclar və qurd təsvirləri Gəmiqaya təsvirlərinin və boyalı keramikanın sevilən motivlərindəndir. Gəmiqaya təsvirləri ilə bağlı Nuh əfsanəsinin olmasına baxmayaraq, araşdırmalar folklor nümunələrində yaşayan inancların Nuh əfsanəsindən də qədimlərə gedib çıxdığını göstərir. Gəmiqayadakı heyvan və insan təsvirlərində əks olunan inanclar buna misal ola bilər.

2001-2002-ci illərdə Gəmiqayada və digər abidələrdə apardığımız araşdırmalar zamanı aşkar olunan arxeoloji materialların, etnoqrafik məlumatların və toponimlərin toplanması Orta Tunc dövründə Naxçıvanda məskən salan qədim tayfaların mənşəyini öyrənməyə, onların köç yollarını dəqiqləşdirməyə imkan vermişdir. Nəhəcir kurqanından aşkar olunan qara cilalı basma naxışlı qablar Azərbaycanın şimalında yaşayan tayfalarla onlar arasında iqtisadi-mədəni əlaqələrin olduğunu göstərir. Basma naxışlı qabların yerli istehsalla bağlı olması haqqında fikirlər irəli sürülsə də bu tip keramika Azərbaycanın cənub rayonlarında olduqca az tapılmışdır. Bu keramikanın əsas istehsal mərkəzlərindən birinin Qarabağda olduğunu ehtimal edirik.

E.ə. II minilliyin ikinci yarısında Naxçıvanda Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik əlamətlərin yayıldığı müəyyən edilmişdir. Araşdırmalar Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının Naxçıvanda uzun müddət məskən saldığını və siyasi hadisələrə qarışdığını göstərir (6, s. 12-13). Naxçıvan ərazisində olan Xocalı-Gədəbəy mədəniyyəti abidələri mövsümi yaşayış yerləri və qəbir abidələri ilə təmsil olunmuşdur. I Kültəpə və II Kültəpə yaşayış yerlərində də bu mədəniyyətin xarakterik əlamətləri izlənmişdir. Yaşayış yerlərinin araşdırılması bu tayfaların yarımköçəri həyat tərzi keçirdiyini göstərir. Bu mədəniyyətə aid abidələrin başlıca olaraq dağlıq və dağ ətəklərində yerləşməsi əhalinin əsas məşğuliyyətinin maldarlıq olduğunu göstərir.

Qəbir abidələrinin tədqiqi göstərir ki,bu mədəniyyət üçün daş qutu tipli qəbirlər və kurqanla örtülmüş torpaq qəbirlər xarakterik olmuşdur. Kolanı nekropolundakı daş qutuların tədqiqi zamanı müəyyən edilmişdir ki, onların hazırlanması üçün lazım olan sal daşlar "İman dərəsi" adlı uzaq məsafədən gətirilmişdir. Lakin qəbirləri bütövlükdə sal daşlarla qurmaq mümkün olmadığından onların bəzi qismləri hörülərək düzəldilmişdir. Qəbir abidələrinin digər bir qrupunu üzərində kurqan düzəldilən torpaq qəbirlər təşkil edir. Bu tip qəbirlərə Şərur rayonunda Zeyvə, Şahbuz rayonunda Sarıdərə nekropolunda rast gəlinmişdir. Dəfn adətində müxtəliflik tayfaların etnik cəhətdən yekcins olmadığını göstərsə də qəbir avadanlığının ümumiliyi onlar arasında etnik birləşmə prosesinin başa çatdığını göstərir. Bu dövrdə son inkişaf mərhələsini yaşayan boyalı qablar mədəniyyətinin Xocalı-Gədəbəy mədəniyyəti ilə birləşmə prosesi arxeoloji materiallarda aydın şəkildə izlənmişdir (7, s. 37).

Naxçıvan arxeoloji abidələrinin tədqiqindən bəlli olduğu kimi Son Tunc dövründən başlayaraq bu regionda çaynik tipli qabların tətbiqi genişlənmişdir. Araşdırmalar göstərir ki, bu tip qablar başlıca olaraq Naxçıvan və ona qonşu olan regionlarda Cənubi Azərbaycanda, Zəngəzurda, Araz çayının yuxarı axarlarında yayılmışdır. Naxçıvan abidələrində həmçinin çaynik tipli qabların boyalılarına və halqadabanlılarına rast gəlinir (13, s. 148). Cənubi Qafqazın digər regionlarında bu tip qablar aşkar olunmamışdır. Bu tip keramika Naxçıvanda formalaşan arxeoloji mədəniyyətin xarakterik xüsusiyyətlərini təşkil edir. Bu faktlar Naxçıvan ərazisində arxeoloji mədəniyyətlərin yerli zəmin əsasında inkişaf etdiyini göstərir. Ümumiyyətlə, Boyalı qablar mədəniyyətinin Cənubi Qafqazın digər regionlarından fərqli olaraq Naxçıvanda uzun müddət davam etməsi və qabların olduqca müxtəlif motivdə naxışlanması, habelə naxışların çəkilmə texnikasının zənginliyi Naxçıvanın boyalı qablar istehsalının əsas vətənlərindən biri olduğunu göstərir.

Orta Tunc dövrünün sonu, Son Tunc dövrünün əvvəllərində Naxçıvanda zəngin naxışlı boyalı qablar meydana çıxmışdır. Bu Şahtaxtı, II Kültəpə, Haftavantəpə materiallarında və Qaziantep tapıntılarında özünü aydın şəkildə göstərir. Qablar müxtəlif motivli heyvan, insan təsvirləri və həndəsi ornamentlə naxışlanmışdır. Qabların naxışlanmasında mifoloji kompozisiyaların meydana çıxması bu dövrdə boyalı qablar mədəniyyətinin çiçəklənmə dövrü keçirdiyini, habelə yüksək zövqlə hazırlanmış keramika məmulatı tələb edən yuxarı təbəqənin gücləndiyini göstərir. Boyalı qablar mədəniyyətinin bu çiçəklənmə dövrü, bizcə, e. ə. XVI-XIV əsrləri əhatə etmişdir. Aparılan araşdırmalar deməyə əsas verir ki, e. ə.II minilliyin ikinci yarısında Naxçıvanda yaşayan tayfaların siyasi fəallığının artdığı dövrdür. Bu hadisələrin inkişafında e. ə. II minilliyin sonu və I minilliyin əvvəllərində Azərbaycana Assur və Urartu basqınlarının güclənməsinin də müəyyən rolu olmuşdur. Arxeoloji abidələrin tədqiqi ilə Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının Azərbaycanın şimalından cənuba doğru hərəkəti izlənmişdir (6, s. 12-13). Xocalı-Gədəbəy tipli keramika və silahlara Urmiya hövzəsindəki abidələrdə rast gəlinməsi sübut edir ki, bu tayfaların cənuba doğru hərəkəti Urmiya hövzəsindəki siyasi hadisələrlə bağlı olmuşdur (6, s. 13).

Dəmir dövrü mədəniyyəti Naxçıvanda az öyrənildiyi kimi onun mədəni mənsubiyyəti haqqında da az fikirlər söylənmişdir. Naxçıvan ərazisi Yaxın Şərqin ən qüdrətli dövlətlərindən biri olan Urartu ilə qonşu olduğu üçün bəzi tədqiqatçılar Urartu mixi yazılarını axtarmaq üçün Naxçıvan ərazisinə arxeoloji səfərlər təşkil etmişlər, lakin onların araşdırmaları uğurlu nəticə verməmişdir. Son zamanlar İtaliyada nəşr olunan bir məqalədə Naxçıvanda, Culfa rayonunun Xoşkeşin kəndi yaxınlığında aşkar olunan urartululara aid bir kitabə haqqında məlumat verilmişdir. Bu kitabədə Urartu kralı Menuanın Culfa rayonu və Əlincəçay hövzəsinə bir reydi haqqında məlumat verilmişdir. Kitabənin harada olduğu indiyədək Azərbaycan arxeoloqları tərəfindən təsbit edilməmişdir. Kitabənin mətni bu ərazinin urartululara məxsus olmadığını, onların buraya işğalçı yürüşlər təşkil etdiklərini sübut edir. Ümumiyyətlə, arxeoloji araşdırmalar, habelə Urartu mixi yazıları göstərir ki, urartuluların işğal etdikləri ərazidə əhalinin etnik tərkibi yekcins olmamışdır. Arxeoloji ədəbiyyatda Urartu mədəniyyəti adı ilə tanınan mədəniyyət də müxtəlif mənşəli xalqlar tərəfindən yaradılmışdır.

Naxçıvanda Batabat yaylağında təsbit edilən qaya məzarı, Yurdçu sərdabəsi, Şərurdan tapılan tunc kəmər və tunc möhür Dəmir dövründə Ön Asiya, xüsusilə Urartu mədəniyyətinin Naxçıvana müəyyən təsir etdiyini göstərir. Bu təsir incəsənət əsərlərində və bəzi keramika nümunələrində əks olunmuşdur. Bu, tamamilə təbiidir. Naxçıvanın Urartu ilə qonşuluqda yerləşməsi belə bir təsvir üçün şərait yaratmışdır. Lakin qeyd etmək istəyirik ki, Naxçıvanın Dəmir dövrü mədəniyyəti Urartu mədəniyyətindən tamamilə fərqlənir. Urartunun mərkəzi rayonları üçün xarakterik olan qırmızı rəngli cilalı keramikaya burada ya rast gəlinməmişdir, ya da çox az rast gəlinir. Oğlanqala yaşayış yerinin tədqiqi Naxçıvanın Dəmir dövrü mədəniyyəti üçün çəhrayı və boz rəngli keramika ilə fərqlənən komplekslərin xarakterik olduğunu göstərir (7, s. 41).

Naxçıvanın Dəmir dövrünə aid abidələrinin arxitekturası da Urartu abidələrindən xüsusi əlamətləri ilə fərqlənir. Urartu qalaları üçün xarakterik olan tikinti texnikası, habelə bu qalaların daxili strukturu ilə bağlı xüsusiyyətlər Naxçıvan abidələrində yoxdur.

Oğlanqalada aparılan qazıntılar bu yaşayış yerinin e. ə. IX-VI əsrlərdə yerli hökmdarlara məxsus bir inzibati-siyasi mərkəz olduğunu göstərir. Oğlanqalanın bəzi müdafiə divarlarında rizalitlərdən istifadə edilmişdir. Bu memarlıq üslubu Urartunun son dövr arxitekturası üçün xarakterikdir. Lakin Oğlanqalanı fərqləndirən cəhət qalanın ümumi planının relyefə uyğun planda qurulması, qala divarlarının bəzi qismlərinin yarımdairəvi qüllələrlə möhkəmləndirilməsidir. Bu xüsusiyyətlər Urartu qalalarında yoxdur. Bəlli olduğu kimi,Urartu qalaları üçün relyefə uymaq xarakterik deyil. Urartu abidələrində divarların düz planda olmasına əhəmiyyət verilmiş, lazım olduqda qarşıya çıxan qayalar düzəldilərək onun üzərində divar hörülmüşdür.

Urartu abidələri ilə çağdaş olan Yurdçu məzarı, ondan aşkar edilmiş arxeoloji materiallar fərqli xüsusiyyətlər göstərməkdədir (8, s. 5-23). Şübhəsiz ki, aşkar edilmiş tapıntılar urartuluların qonşuluqda yerləşən bu əraziyə yaxşı bələd olduqlarını, onlar arasında iqtisadi-mədəni əlaqələrin olduğunu göstərir. Naxçıvan yaxınlığında Arazın sağ sahilində tapılan Urartu mixi yazıları da bunu sübut edir. Naxçıvan ərazisinin urartular tərəfindən müəyyən müddət ərzində işğal edilməsi ehtimalı da vardır. Lakin arxeoloji faktlar onların Naxçıvanda uzun müddət möhkəmlənə və Naxçıvanda yaşayan tayfaların mədəniyyətini tamamilə öz təsirlərinə sala bilmədikləri haqqında məlumat verir. Dəmir dövrünə aid Yurdçu (8, s. 5-23), Muncuqlutəpə (3, s. 221), Xalikeşan, Mərdangöl və digər abidələrin tədqiqi bu dövrdə tamamilə fərqli bir mədəniyyətin olduğunu göstərir. Şübhəsiz ki, bu mədəniyyət qədim dövrlərdən burada məskən salan aborigenlərə məxsus olmuşdur.

Skiflərlə bağlı tapıntılar az olsa da, tək-tək əldə edilən maddi mədəniyyət nümunələri bir tərəfdən Naxçıvanın Dəmir dövrü abidələrinin kifayət qədər öyrənilmədiyini, digər tərəfdən isə kimmer-skif-sak tayfalarının e.ə. VII əsrdə Naxçıvanda məskən saldığını göstərir. Naxçıvanda saklarla bağlı toponimlərin olması da bunu sübut edir.

Belə hesab edirik ki, Erkən Dəmir və Dəmir dövründə əvvəlcə Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının, daha sonra isə kimmer-skif və sakların Naxçıvanda məskən salması, habelə bu ərazidə möhkəm müdafiə qurğularının tikilməsi xarici basqınların, o cümlədən Urartu basqınlarının qarşısını almışdır.

Naxçıvanın arxeoloji abidələrinin və qədim sənət nümunələrinin araşdırılması göstərir ki, Eneolit dövründən başlayaraq Dəmir dövrünədək Naxçıvanda etnik və mədəni baxımdan bir-birinə yaxın olan müxtəlif xalqlar, şumer, subar, kuti, lullubi, naxçı, su və turukki tayfaları məskən salmışdır. Bu tayfaların yaratdığı mədəniyyət zaman-zaman müəyyən dəyişikliyə uğrasa da, Azərbaycan türklərinin etnogenezində böyük rol oynamış, xalqımızın etnoqrafiyası və folklorunda indiyədək qorunub saxlanmışdır.

Ədəbiyyat

1. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку, 1991.
2. Amanoğlu Ə. Naxçıvan sözünün mənşəyi haqqında. Naxçıvan, 2000, № 2, s. 27-30.
3. Асланов Г.М., Кашкай С.М. Погребения некрополья Мунджуклутепе, Советская археология, 1991, № 3, с.221-233.
4. Baxşəliyev V.B., Seyidov A.Q. Naxçıvanın qədim tarixi. Bakı, 1995.
5. Baxşəliyev V.B. Miladdan əvvəl XI-VI əsrlərdə Naxçıvnda etnik-mədəni proseslər. Azərbaycan tarixində Naxçıvan, Bakı, 1996, s. 5-13.
6. Bahşaliyev V.B. Nahçıvanda bir Erken Demir çağ nekropolu - Kolanı. Türk Tarih Kurumu, Belleten, 1998, № 233, s. 1-13.
7. Bahşalıyev V.B. Nahçıvan arkeolojisi // Archaeology of Nahchivan, İstanbul, 1997.
8. Bahşaliyev Veli, Andreas Schashner. Das Kammergrab von Yurdçu/ Naxçıvan ein beitrag zur archaeologie der frühеisenzeit Transkaukasiens und Ostanatoliens, SMEA, 43/1, Roma, 2001, p. 5-23
9. Brown T.B. Excavation in Azerbaiyan 1948, London, 1951.
10. Burney C.A. Eastern Anatolia in the Chalcolitic and Early Bronz Age, AS, 1958, vol.VIII, p. 157-199.
11. Чайлд Г. Древнейший Восток в свете новых раскопок. М., 1965.
12. Дьяконов И.М. Некоторые лингвистические данные к проблеме связей Восточного Закавказья с Древним Востоком в III-I тысячелетиях до н.э. МСПППИФАН, Баку, 1966, с.5-8.
13. Əliyev V.H. Azərbaycanda Tunc dövrünün boyalı qablar mədəniyyəti. Bakı, 1977.
14. Массон В.М. Средняя Азия и Древний Восток. М.,-Л., 1964.
15. Нариманов И.Г. Обейдские племена Месопотамии в Азербайджане. Тез. докл. Всесоюз. сесс., Баку 1985, с.271.
16. Кушнарева К.Х., Чубинишвили Т.Н. Древние культуры Южного Кавказа. М.,-Л., 1970.
17. Куфтин Б.А. Археологические раскопки в Триалети. Тбилиси, 1941.
18. Seyidov A.Q., Baxşəliyev V.B. Nəhəcirdə arxeoloji araşdırmalar. Bakı, 2002.
19. Ямпольский З.И. О значении слова ван в имени Нахичевань. Известия АН Азерб. ССР,1961, № 1, с.13-19.

Vəli BAXŞƏLİYEV